*Bytyn əlkələrin proletarlarь, birləşin!*

# Qommunist

*Azərbajçan Q(b)P MQ və BQ, Az. MIQ və BS orƣanь*

DEQABR 1
1937-nçi il
Çarşənbə
№ 276 (5204)
XVIII il davamь
Nysxəsi 10 qəpik

# KIROV – MYBARIZƏ VƏ ƢƏLƏBƏLƏR BAJRAƢЬDЬR

## S. M. Kirova abidənin təməlinin qojuluşunda M. Ç. Baƣьrov joldaşьn nitqi

Əlkəmizin əməkcilərinin unudulmaz dostu və joldaşь, partijamьzьn gərkəmli təşkilatcьlarьndan və rəhbərlərindən biri, bəjyk Stalinin sadiq şagirdi və silahdaşь Sergej Mironovic Kirov yc il bundan əvvəl - 1934-çy il deqabrьn 1-də şpionun, faşist razvedqasь agentinin xajin gylləsi ilə əldyryldy.

Kirovun əlymy, işci sinifi və sosializm dyşmənlərinin - faşizm razvedqasьna xidmətə girən və gəzəl vətənimizin hərraç edilməsini, qapitalizmin bərpa edilməsini, mylkədarlar və burzuazija hakimijjətinin jenidən jaradьlmasьnь hazьrlajan trotskistlərin, zinovjevcilərin, buxarincilərin, burzua- nasionalistlərinin və bytyn başqa qontrrevoljusionerlər syrysynyn alcax çənajətlərinin bəşər tarixində misli gərynməmiş mənfur və əçlaf mənzərəsini aşkara cьxartdь.

Kirovun əlymy, sosializm myəssisələrimizdə, sovxozlarьmьzda və qolxozlarьmьzda, transportumuzda zijancьlьxlarьn və diversijalarьn mydhiş mənzərəsinin ystyny acdь, əlkəmizin əməkcilərinin əli ilə jaradьlmьş sosializm sərvətlərinin kytləvi surətdə daƣьdьlmasь faqtlarьnьn ystyny acdь.

Kirovun əlymy, qudurmuş qapitalizm kəpəklərinin - trotskistlərin, zinovjevcilərin, buxarincilərin, burzua - nasionalistlərinin və hər çyr başqa insan tərtəkyntylərinin vəhşi ic yzyny, işci sinifinə, qommunist partijasьna və sosializmə qarşь vəhşi kinini axьradək aşkara cьxartdь.

Kirovun əlymy, bu vəhşiləşmiş banditlərin mydhiş çənajətlərini-german və japon razvedqalarьnьn tapşьrьƣь ilə işcilərin kytləvi surətdə əldyrylməsini, zəhərlənməsini, myəssisələrdə patlajьşlar tərədilməsini, Işci - Kəndli Qьzьl Ordumuzun dəjyşcylərinin əldyrylməsini və eşalonlarьn aşьrьlmasьnь aşkara cьxartdь.

Kirovun əlymy, əlkəmizin əməkciləri ycyn dəhşətli kytləvi qьrƣьn hazьrlandьƣьnь, intervensija olaçaƣь təqdirdə əlkəmizin məƣlub olmasьnь təşkil etmənin hazьrlandьƣьnь aşkara cьxartdь.

Kirovun əlymy, partijamьzьn və əlkəmizin rəhbərlərinə və başcьlarьna qarşь sovet xalqьnьn dyşmənləri tərəfindən hazьrlanan terror aqtlarьnьn mydhiş mənzərəsini aşkara cьxartdь.

Kirovun əlymy, bəşər çəmijətinin alcax tərtəkyntyləri japon-german faşizminin agentləri - trotskistlər, zinovjevcilər, buxarincilər və burzua - nasionalistləri tərəfindən, bytyn dynja məzlumlarьnьn atasь və dostu, rəhbərimiz və myəllimimiz doƣma Stalin joldaşь əldyrməjə hazьrlьx gəryldyjyndən sovet xalqьnь xəbərdar edən siqnal oldu.

Kirovun əlymy, siqnal verdi ki, vətənimizin satqьn xajinləri, dynja proletar revoljusijasьnьn strategi, sosializmin ƣələbələrinin təşkilatcьsь, sovet xalqlarьnьn bəjyk ailəsinin doƣma və sevimli atasь Stalin joldaşь əldyrməjə və bununla da əməkci bəşərijəti başsьz qojmaƣa, bəjyk sovet xalqьnь başsьz qojmaƣa çəhd edirdilər.

Kirovun əlymyndən sonra xalq dyşmənlərinin alcax xəjanətlərinin aşkara cьxarьlan mənzərəsi, sosializm dyşmənlərinin nə dərəçə alcaxlьƣa catdьqlarьnь gəstərdi; bu mənzərə gəstərdi ki, faşist qatillər bəjyk sovet xalqьnь əsarət altьna salmaq, onun bojnuna istismar bojunduruƣunu taxmaq, işcilərimizi, qolxozcularьmьzь və əməkcilərimizi jad jerli qapitala qul etmək ycyn etdikləri çəhdlərdə hec bir vasitədən geri durmurlar.

Bytyn əz gəzəl və şanlь həjatьnь işci sinifinin azadlьƣь işinə, Lenin - Stalin partijasь işinə, sosializm işinə vermiş olan Kirovun əlymy, bəjyk sovet əlkəsi ycyn, bytyn dynja əməkciləri ycyn həjəçanlь siqnal oldu. **Bytyn sovet xalqь bəjyk kin və ƣəzəblə ajaƣa qalxdь.**

Dyşmənlər, partijamьzьn və xalqьmьzьn rəhbərlərindən birini sьralarьmьzdan qopartdь. Lakin bəjyk Lenin - Stalin partijasь sarsьlmadь. Partijamьz, Kirovun əlimizdən getməsinin jerini dolduraraq, daha artьx məhkəmləşdi, əz qyvvələrini daha artьx səfərbərlijə aldь və revoljusijanьn dahi strategi Stalin joldaşьn ətrafьna daha sьx toplaşdь.

Həjatь bunça sevən, həjatь, bəşərijətin azadlьƣь uƣrunda mybarizə kimi, sosializmin qalibijəti uƣrunda, dynja qommunizmi uƣrunda mybarizə kimi, bytyn bəşər çəmijətinin xoşbaxtlьƣь, şadlьƣь və sevinçi kimi başa dyşən Kirov yc il bundan əvvəl əməkci bəşərijətin dyşmənlərinin əli ilə əldyryldy.

Kirovun əlymynyn ycynçy ildənymy, sosializmin ƣələbəsini və naililijətlərini məhkəmlədən qanunun əlkəmizdə həjata kecirilməsi ilə bir vaqta dyşyr. Indi daha Kirov bizim aramьzda joxdur ki, bəşər tarixində ilk dəfə olaraq 1937-çi il deqabrьn 12-də sosializm demoqratizmi əsasьnda, ymumi, mystəqim, barabar və gizli səsvermə əsasьnda SSRI Baş Sovetinin birinçi hejətini sosializmin geniş acьlmьş bajraƣь altьnda secməjə hazьrlaşan bəjyk sovet xalqьnьn misli gərynməmiş ymum xalq təntənəsində bizimlə birlikdə iştirak etsin.

Bir il bundan əvvəl Stalin joldaşьn mə'ruzəsi yzrə Fəvqəl'adə VIII Ymum Ittifaq Sovetlər Qurultajь jeni Stalin Qonstitusijasьnь - bəşər tarixində jeni epoxa acan, SSRI vətəndaşlarь hyquqlarьnьn bəjyk xartijasьnь qəbul etdi.

Əlkəmizin Stalin Qonstitusijasь, sovet xalqьmьzьn qazandьqlarьnь və bytyn dynja əməkcilərinin qazanmalь olduqlarьnь qьzьl hərflərlə qeid etmişdir.

Stalin Qonstitusijasь, SSRI vətəndaşlarь ycyn, qazanьlmьş hyquq və naililijətləri məhkəmlədən qanun olmaqla barabar, bytyn dynjanьn əməkciləri ycyn hərəkət proƣramьdьr.

Stalin Qonstitusijasь, unudulmaz Sergej Mironovic Kirovun bytyn əmry boju sədaqətlə xidmət etdiji qalib gəlmiş sosializmin ƣələbə doqumentidir.

Barabar hyquqlu onbir myttəfiq respubliqadan biri olan Sovet Azərbajçanьnьn sosializm ƣələbələrində Kirov joldaşьn xidmətləri xysusilə bəjykdyr.

Kecmişdə carizmin geridə qalmьş qolonijasь olan Azərbajçan indi cicək kimi acan, qabaxçьl, ordenli sovet respubliqasьdьr.

(SONU IKINCI SƏHIFƏDƏ)

